# 2024 TOPÇUBAŞOV
# ARBİTRAJ MÜSABİQƏSİ

# MÜSABİQƏ İŞİ

Müəllif:
Ruslan Mirzəyev

BAKI DÖVLƏT UNİVERSİTETİ HÜQUQ FAKÜLTƏSİ **TƏLƏBƏ ELMİ CƏMİYYƏTİ** TƏRƏFİNDƏN TƏŞKİL OLUNUR.

Vebsayt: mcs.bsulawss.org/court/
E-poçt: moot@bsulawss.org

**Vəkil Conson**

Atlantida Krallığı Vəkillər Kollegiyası
5 saylı Vəkil Palatası
Ünvan: Mübahisə küçəsi 7
Abad şəhəri, Atlantida Krallığı
Tel: +(0) 1 2 2223; Faks: (0) 1 2 2224; E-poçt: adv.conson@palata.av

*12.10.2023-cü il tarixində ICC Case Connect vasitəsilə*

Beynəlxalq Ticarət Palatası, Beynəlxalq Arbitraj Məhkəməsi
Baş katib cənab Aleksandr G. Fessas
Ünvan: 33 – 43 Prezident Vudro Vilson prospekti
75116 Paris
Fransa

Hörmətli cənab Fessas,

Təmsil etdiyim “Atlantida Hotel” Şirkəti adından ICC Qaydalarının 4-cü maddəsinə uyğun olaraq əlavə edilmiş Arbitraj bildirişini təqdim edirəm. Bu arbitraj icraatında “Atlantida Hotel” Şirkətini təmsil etməyə icazə verən etibarnamənin surəti də əlavə olunur.

İddianın qeydiyyatı üçün haqqı ödənilib.

İddiaçı Cavabdehlər tərəfindən müqavilə üzrə öhdəliklərinin yerinə yetirilməsini tələb edir. Bu arbitraja əsas olan müqavilə arbitraj yerinin Bakı şəhəri olmasını və arbitrajın Azərbaycan dilində aparılmasını nəzərdə tutur. Arbitraj müqaviləsində üç arbitrin iştirakı nəzərdə tutulur. İddiaçı arbitrlərdən biri kimi Birinci Arbitrin namizədliyini irəli sürür.

Tələb olunan sənədlər əlavə olunur.

Hörmətlə,
Vəkil Conson

**Qoşma:**

1. *Etibarnamə;*
2. *Arbitraj bildirişi və qoşmaları.*

"Atlantida Hotel" Şirkəti tərəfindən (Atlantida Krallığı, Dream şəhəri, Sülh küçəsi 15)

"Peşəkar Tikinti" MMC-yə qarşı (Azərbaycan Respublikası, Bakı şəhəri, Azərbaycan prospekti 1)

"Peşəkar Tikinti" MMC-nin yeganə təsisçisi, zamin Əliyev Əhməd Vəli oğluna qarşı (Azərbaycan Respublikası, Bakı şəhəri, Azərbaycan prospekti 1)

12 oktyabr 2023-cü il

## ARBİTRAJ BİLDİRİŞİ

Hazırkı bildiriş ilə "Atlantida Hotel" Şirkəti **("İddiaçı")** Beynəlxalq Ticarət Palatasının (ICC) Arbitraj Qaydalarına əsasən "Peşəkar Tikinti" MMC-yə **("Cavabdeh")** qarşı arbitraj iddiası qaldıraraq Beynəlxalq Ticarət Palatasının (ICC) Beynəlxalq Arbitraj Məhkəməsinə müraciət edir.

**FAKTLAR**

İddiaçı Atlantida Krallığında qeydiyyatdan keçmiş və fəaliyyət göstərən, otellərin tikintisi və idarə edilməsində ixtisaslaşan nüfuzlu bir şirkətdir. Atlantida Krallığı "Xarici arbitraj qərarlarının tanınması və icra edilməsi haqqında" BMT-nin 1958-ci il 10 iyun tarixli Nyu-York Konvensiyasına üzvdür. Krallıqda "Arbitraj haqqında" Qanun qüvvədədir. Arbitraj, "Beynəlxalq arbitraj haqqında" Azərbaycan Respublikası Qanunu ilə uyğunluq təşkil edir.

İddiaçı ilə Cavabdeh arasında 2019-cu ilin yanvar ayında ilkin əlaqələr yaranmışdır. Cavabdeh İddiaçının ofisinə gələrək, onun işlədiyi podratçıların çox baha olduğunu, Cavabdehin tikinti işləri ilə uzun illər təcrübəyə malik olduğunu və istənilən işi daha səmərəli, həmçinin keyfiyyətli şəkildə icra edə biləcəyini bildirmişdir. Daha sonra Cavabdeh İddiaçıya 7 may 2019-cu il tarixdə elektron poçt məktubu göndərərək özü barədə məlumat vermiş və otelin tikinti işlərini icra edə biləcəyini qeyd etmişdir (Qoşma İ-001). İddiaçı ilə Cavabdeh arasında 10 iyul 2019-cu il tarixdə Podrat müqaviləsi (bundan sonra "Podrat müqaviləsi") (Qoşma İ-002), 10 avqust 2019-cu il tarixdə isə Malların alğı-

satqısı müqaviləsi (bundan sonra "Alğı-satqı müqaviləsi") (Qoşma İ-004) imzalanmışdır. 10 avqust 2019-cu il tarixdə Cavabdehin tək təsisçisi ilə İddiaçı və Cavabdeh arasında bağlanmış üçtərəfli müqaviləyə (bundan sonra "Zaminlik müqaviləsi") (Qoşma İ-005) əsasən Cavabdehin təsisçisi Əliyev Əhməd Vəli oğlu (bundan sonra "Zamin") Cavabdehin bütün öhdəliklərinin icrasına zəmanət vermişdir.

Podrat müqaviləsinə əsasən 13 500 000 (on üç milyon beş yüz min) ABŞ dolları qarşılığında Cavabdeh Bakı şəhərində İddiaçıya məxsus torpaq sahəsində 3 (üç) il ərzində otel tikməli idi. Həmçinin Alğı-satqı müqaviləsinə əsasən Cavabdeh İddiaçıdan həmin tikintidə istifadə üçün idxal edilməli olan bütün malları, o cümlədən 5 000 000 (beş milyon) ABŞ dolları dəyərində ABŞ və ya Avropa istehsalı olan xüsusi ölçmə cihazları, havalandırma sistemi, elektrik avadanlıqları və digər malları almalı idi.

Podrat müqaviləsi üzrə 2 000 000 (iki milyon) ABŞ dolları dəyərində avans ödəniş edilmiş, lakin 2 (iki) il ərzində işlər gecikmiş, daha sonra isə işlər, ümumiyyətlə, dayandırılmışdır. Aydın olmuşdur ki, Cavabdeh özü barədə yanlış məlumat vermiş, İddiaçı isə bu məlumata əsaslanaraq müqavilə imzalamışdır. Daha sonra Cavabdehin bu işləri görmək üçün heç bir resursu və təcrübəsinin də olmadığı aşkarlanmışdır. Nəhayət, işləri gecikdirdiyi üçün İddiaçı Cavabdehə 10 oktyabr 2019-cu il tarixdə bildiriş təqdim etmişdir (Qoşma İ-006).

Cavabdeh Alğı-satqı müqaviləsi üzrə 15 oktyabr 2019-cu il tarixdə cəmi 100 000 (yüz min) ABŞ dolları dəyərində sifariş vermiş, sonradan hər hansı sifariş verməmişdir. Əlavə olaraq, o, aldığı malların keyfiyyəti və ya Podrat müqaviləsi ilə bağlı heç bir etiraz etməmiş və bildiriş verməmişdir.

Daha sonra İddiaçı ona dəymiş zərərin ödənilməsi barədə Cavabdehə 15 may 2022-ci il tarixli elektron poçt məktubu göndərmiş (Qoşma İ-007), Cavabdeh isə İddiaçıya 25 may 2022-ci il tarixdə elektron poçt vasitəsilə cavab göndərərək (Qoşma İ-008) bu məsələni müzakirə etməyi təklif etmişdir.

**HÜQUQİ MƏSƏLƏLƏR VƏ TƏLƏBLƏR**

Podrat müqaviləsində mübahisələrin həlli bəndi olmasa da, tərəflərin sonradan bağladığı Alğı-satqı müqaviləsi ilə bütün mübahisələrin Beynəlxalq Ticarət Palatasının (ICC) Arbitraj Qaydalarına uyğun olaraq həll edilməsi nəzərdə tutulmuşdur. İddiaçının Cavabdehə göndərdiyi 5 avqust 2019-cu il tarixli elektron poçt məktubunda da (Qoşma İ-003) həmin bəndin digər müqavilələrə də tətbiq edilməsi nəzərdə tutulmuşdur. Zamin isə digər müqavilələrin şərtlərini tam həcmdə qəbul etdiyi üçün onun mövcud şərtlərlə arbitraja razılıq verdiyi hesab edilməlidir. Bu səbəblə də Alğı-satqı və Podrat müqavilələri üzrə, həmçinin Zaminlə yaranan bütün mübahisələrə hazırkı arbitrajda baxıla bilər.

Alğı-satqı müqaviləsinin 7.2-ci bəndində aşağıdakı mübahisələrin həlli yolu nəzərdə tutulur:

*"Tərəflər arasında bu Müqavilə və onun icrası ilə bağlı digər bütün müqavilə və qeyri-müqavilə münasibətlərindən yaranan, həmçinin müqavilənin bağlanması, etibarlılığı, şərhi və ya icrasından irəli gələn bütün mübahisələr Beynəlxalq Arbitraj Palatasının Arbitraj Qaydalarına uyğun olaraq Bakı şəhərində Azərbaycan dilində keçirilən arbitrajla 3 (üç) arbitrdən ibarət arbitraj məhkəməsində həll olunur."*

Əlavə olaraq, Müqavilə üzrə münasibətlərinin Azərbaycan Respublikası qanunvericiliyi ilə tənzimləndiyi qeyd edilir.

Cavabdeh İddiaçıya 2 000 000 (iki milyon) ABŞ dolları dəyərində işləri gördüyünə dair hesabatlar təqdim etsə də, İddiaçı bu işləri heç bir zaman təhvil almamış, sonradan görülmüş işlərin dəyərini qiymətləndirmiş və müəyyən etmişdir ki, görülən işlərin əksəriyyəti yanlış həyata keçirilmişdir. Mövcud işlərin İddiaçının marağını itirmədiyi faktiki dəyəri cəmi 300 000 (üç yüz min) ABŞ dollarıdır.

Qeyd edilənləri nəzərə alaraq, hazırkı bildiriş ilə İddiaçı Cavabdeh və Zamindən aşağıdakıları tələb edir:

1. Cavabdeh özü barədə yanlış məlumat vermiş, İddiaçı isə bu məlumata əsaslanaraq müqavilə imzalamışdır. Daha sonra Cavabdehin bu işləri görmək üçün heç bir texnikası/resursu və təcrübəsi də olmadığı aşkarlanmışdır. Nəhayət, işləri gecikdirdiyi üçün İddiaçı Cavabdehə 10 oktyabr 2019-cu il tarixdə bildiriş təqdim etmişdir (Qoşma İ-006).

   Cavabdeh işləri (tam) icra edə bilmədiyindən görülmüş işlərin real dəyəri olan 300 000 (üç yüz min) ABŞ dolları vəsaiti çıxılmaqla, Podrat müqaviləsi üzrə ödənmiş məbləğdən 1 700 000 (bir milyon yeddi yüz min) ABŞ dolları Cavabdeh tərəfindən İddiaçıya geri qaytarılsın;
2. Podrat müqaviləsi üzrə işləri gecikdirdiyinə görə əmək haqqı və digər xərclər qismində 500 000 (beş yüz min) ABŞ dolları həcmində real zərər və 2 500 000 (iki milyon beş yüz min) ABŞ dolları həcmində əldən çıxmış fayda olmaqla, Cavabdeh tərəfindən İddiaçıya ödənilsin;
3. Atlantida Krallığının Statistika Komitəsinin internetdə hər kəs üçün açıq olan məlumat bazasına əsasən bu sektorda (ixtisaslaşmış tikinti mallarının satışı), adətən, mənfəət marjasının 25% olduğu nəzərə alınaraq, İddiaçının Alğı-satqı müqaviləsi üzrə gözlədiyi fayda, yəni 1 250 000 (bir milyon iki yüz əlli min) ABŞ dolları dəyərində əldən çıxmış fayda Cavabdeh tərəfindən İddiaçıya ödənilsin;

4. Bütün ödənilməli vəsait üzrə Azərbaycan Respublikası qanunvericiliyinə əsasən Mərkəzi Bankın uçot faiz dərəcəsi ilə faizi Cavabdeh tərəfindən İddiaçıya ödənilsin;
5. Arbitraj və hüquqşünas xərcləri Cavabdeh tərəfindən ödənilsin.

**PROSESSUAL MƏSƏLƏLƏR**

İddiaçı Beynəlxalq Ticarət Palatasının (ICC) Arbitraj Qaydalarına uyğun olaraq üç arbitrdən birini - Birinci Arbitrin namizədliyini irəli sürür.

**"Atlantida Hotel" Şirkətinin adından** **Vəkil Conson**

*Qoşma İ-001*

**Elektron Poçt**

Kimdən: Cəsarət Əliyev
Kimə: Heriot Hotelier
Mövzu: "Peşəkar Tikinti" MMC barədə məlumat
Tarix: 7 may 2019

Hörmətli Heriot müəllim,

Öncəliklə bizə vaxt ayırıb, görüşdüyünüz və inşa etdirmək istədiyiniz otel barədə məlumat verdiyiniz üçün təşəkkür edirəm.

Bildirmək istərdik ki, şirkətimiz təsvir etdiyiniz oteli tikmək üçün bütün lazımi resurslara və təcrübəyə malikdir. Biz çoxsaylı bənzər layihələr icra etmişik və Azərbaycanda uzun illər tikinti sahəsində fəaliyyət göstəririk. İnşa etdiyimiz binalar arasında çoxsaylı otellər və ofis binaları, dövlət müəssisələrinin binaları mövcuddur. Azərbaycan bazarında olduğumuz 15 (on beş) il ərzində güclü nüfuz qazanmış və tikinti sahəsində ən hörmətli şirkətlərdən birinə çevrilmişik.

Tikintini həyata keçirmək üçün tələb olunan qədər təminata malik olduğumuz üçün qısa müddətdə tikintiyə başlaya, 3 (üç) il ərzində isə tamamlaya bilərik. Əlavə olaraq, bildirmək istərdik ki, bu işləri Sizin büdcədə nəzərdə tutulan kimi 16 500 000 (on altı milyon beş yüz min) ABŞ dollarına deyil, 13 500 000 (on üç milyon beş yüz min) ABŞ dollarına həyata keçirə bilərik.

Əməkdaşlığımızı daha ətraflı müzakirə etmək üçün gələn həftə Sizin ofisdə görüşməyi təklif edirəm.

Hörmətlə,
Cəsarət Əliyev

*Qoşma İ-002*

## PODRAT MÜQAVİLƏSİ

Bu Müqaviləni bir tərəfdən Atlantida Krallığının qanunvericiliyinə uyğun olaraq qeydiyyatdan keçmiş və öz nizamnaməsi əsasında fəaliyyət göstərən, Direktoru Heriot Hotelier şəxsində "Atlantida Hotel" Şirkəti (bundan sonra "Sifarişçi" adlandırılacaq), digər tərəfdən isə Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq qeydiyyatdan keçmiş və öz nizamnaməsi əsasında fəaliyyət göstərən, Direktoru Cəsarət Əliyev şəxsində "Peşəkar Tikinti" Məhdud Məsuliyyətli Cəmiyyəti (bundan sonra "Podratçı" adlandırılacaq) 10 iyul 2019-cu il tarixində bağlamışdır. Sifarişçi və Podratçı birlikdə **"Tərəflər",** ayrı-ayrılıqda isə "**Tərəf"** adlandırılacaqlar.

### 1. MÜQAVİLƏNİN PREDMETİ

1.1. Bu Müqaviləyə əsasən Podratçı 3 (üç) il ərzində hazırkı Müqavilənin 1 saylı Qoşmasında göstərilən tələblərə cavab verən oteli inşa edərək Sifarişçiyə təhvil verməyi öz üzərinə götürür.

1.2. Sifarişçi bu Müqavilədə müəyyən olunmuş xidmət haqqını Podratçıya ödəyir.

1.3. Tərəflər bu Müqavilə üzrə öz üzərinə düşən öhdəliklərin vaxtında və tam həcmdə yerinə yetirilməsini təmin edir.

### 2. XİDMƏT HAQQI VƏ ÖDƏNİŞ QAYDALARI

2.1. Bu Müqavilə üzrə Sifarişçi tərəfindən Podratçıya ödəniləcək xidmət haqqı vergilər daxil olmaqla, 13 500 000 (on üç milyon beş yüz min) ABŞ dolları təşkil edir.

2.2. Bu Müqavilənin 2.1.-ci bəndində qeyd olunan xidmət haqqından 2 000 000 (iki milyon) ABŞ dolları əvvəlcədən, qalan məbləğ isə Sifarişçi tərəfindən Podratçıya aşağıdakı cədvələ uyğun olaraq:

2.2.1. Ərazinin tikinti üçün hazırlanması və binanın bünövrəsinin tökülməsinin dəyəri 2 000 000 (iki milyon) ABŞ dolları – ödənilmiş avansdan çıxılır;

2.2.2. Otelin 2-ci mərtəbəsinin qara tikintisi tamamlandıqdan sonra təqdim edilmiş hesab üzrə 2 000 000 (iki milyon) ABŞ dolları ödənilir;

2.2.3. Otelin bütün mərtəbələrinin qara tikintisi və fasadı tamamlandıqdan sonra təqdim edilmiş hesab üzrə 4 000 000 (dörd milyon) ABŞ dolları ödənilir;

2.2.4. Otelin elektrik və su işləri tamamlandıqdan sonra təqdim edilmiş hesab üzrə 3 000 000 (üç milyon) ABŞ dolları ödənilir;

2.2.5. Otel təhvil verildikdən sonra təqdim edilmiş hesab üzrə 2 500 000 (iki milyon beş yüz min) ABŞ dolları ödənilir;

## 3. TƏRƏFLƏRİN HÜQUQ VƏ VƏZİFƏLƏRİ

3.1. Sifarişçinin vəzifələri:

3.1.1. Bu Müqavilə üzrə Podratçı göstərməli olduğu xidmətləri lazımi qaydada göstərmişdirsə, belə xidmətləri qəbul etmək;

3.1.2. Bu Müqavilədən irəli gələn xidmət haqqını bu Müqavilənin şərtlərinə uyğun olaraq vaxtında və tam həcmdə həyata keçirmək;

3.1.3. Digər Tərəfə vurduğu zərərin əvəzini tam həcmdə ödəmək;

3.1.4. Bu Müqavilədən və qanunvericilikdən irəli gələn digər vəzifələri yerinə yetirmək.

3.2. Sifarişçinin hüquqları:

3.2.1. Bu Müqavilənin şərtlərinə əsasən Podratçı tərəfindən göstərilən xidmətlərin gedişatı və keyfiyyəti ilə maraqlanmaq;

3.2.2. Podratçıdan bu Müqavilənin 3.3.-cü bəndində nəzərdə tutulmuş vəzifələri icra etməsini tələb etmək;

3.2.3. Bu Müqavilədən və qanunvericilikdən irəli gələn digər hüquqlara malikdir.

3.3. Podratçının vəzifələri:

3.3.1. Müqavilə üzrə işləri lazımi qaydada həyata keçirmək və digər Tərəfə vurduğu zərərin əvəzini tam həcmdə ödəmək;

3.3.2. Bu Müqavilədən və qanunvericilikdən irəli gələn digər vəzifələri icra etmək.

3.4. Podratçının hüquqları:

3.4.1. Bu Müqavilənin şərtlərinə uyğun olaraq lazımi qaydada göstərilmiş xidmətlərə görə xidmət haqqını Sifarişçidən tələb etmək;

3.4.2. Sifarişçidən bu Müqavilənin 3.1-ci bəndində nəzərdə tutulmuş vəzifələri icra etməsini tələb etmək;

3.4.3. Bu Müqavilədən və qanunvericilikdən irəli gələn digər hüquqlara malikdir.

## 4. MÜQAVİLƏ ÜZRƏ ÖHDƏLİKLƏRİN POZULMASI VƏ BİLDİRİŞLƏR

4.1. Müqavilə üzrə digər Tərəf hər hansı bir öhdəliyini pozarsa, Tərəf belə pozuntunu bildiyi və ya bilməli olduğu andan 28 (iyirmi səkkiz) gün ərzində digər Tərəfə bildiriş verməlidir. Əgər Tərəf bu müddət ərzində bildiriş vermirsə, həmin pozuntu ilə bağlı bütün hüquqlarını itirir və bununla bağlı hər hansı zərər, xərc və digər ödəniş tələb edə bilməz, digər Tərəf isə bununla bağlı məsuliyyətdən azad olunur.

4.2. Əgər pozuntu davam edirsə, müvafiq Tərəf öhdəliyini pozan tərəfə hər ay belə bildiriş verməlidir.

4.3. Tərəf pozuntu barədə bildiriş verdikdən sonra 20 (iyirmi) gün ərzində qarşı tərəfə sübutlar və xüsusatları ilə birlikdə iddia təqdim etməlidir.

## 5. TƏRƏFLƏRİN MƏSULİYYƏTİ VƏ TƏMİNATLAR

5.1. Tərəflər bu Müqavilə üzrə öhdəliklərini yerinə yetirmədikdə və ya lazımi qaydada yerinə yetirmədikdə Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən olunmuş qaydada məsuliyyət daşıyırlar.

5.2. Bir Tərəf təqsirli olaraq digər Tərəfə vurduğu ziyana və bu Müqavilə üzrə üzərinə götürdüyü öhdəliklərin tam və ya lazımınca yerinə yetirilməməsi ilə bağlı yaranan zərərə görə tam məsuliyyət daşıyır.

5.3. Bu Müqavilə üzrə göstərilən xidmətlərin keyfiyyətinə görə Podratçı məsuliyyət daşıyır.

5.4. Bu Müqavilənin icrası ilə bağlı üçüncü tərəflərə dəymiş ziyanı təqsirli Tərəf öz hesabına ödəyir.

## 6. MÜBAHİSƏLƏRİN HƏLLİ

6.1. Bu Müqavilədəki öhdəliklərin yerinə yetirilməsi ilə əlaqədər olaraq Tərəflər arasında mübahisələr yaranarsa, Tərəflər belə halları öz aralarında aparılan danışıqlar yolu ilə həll etməyə çalışmalıdırlar.

## 7. FORS-MAJOR

7.1. Tərəflər bu Müqavilə ilə nəzərdə tutulan öhdəliklərin tam və ya qismən icra edilməməsinə görə məsuliyyətdən o vaxt azad olunurlar ki, bu icra etməmə bu Müqavilənin bağlanmasından sonra yaranmış, Tərəflərin iradəsindən asılı olmayan, əvvəlcədən görə və təsirinə mane ola bilmədikləri qarşısıalınmaz qüvvənin təsirindən əmələ gəlmiş olsun. Bu cür hallara daşqın, zəlzələ, yanğın, yer sürüşməsi və digər təbii fəlakətlər, müharibə və hərbi əməliyyatlar, kütləvi iğtişaşlar, Tərəflərin münasibətlərini bilavasitə dəyişdirən qanunvericilikdə dəyişikliklər, dövlət və yerli özünüidarəetmə orqanlarının bu Müqavilənin icrasının mümkünsüzlüyünə səbəb olan hərəkətləri və ya qəbul etdikləri aktları aiddir.

7.2. Bu Müqavilənin 7.1.-ci bəndində göstərilən səbəblərdən bu Müqavilənin icrası 90 (doxsan) təqvim günündən artıq müddətdə mümkün olmadıqda və yaxud onun icrasına əsaslı dərəcədə xələl gətirildikdə, Tərəflərdən biri digərini bu barədə azı 30 (otuz) təqvim günü qabaqcadan yazılı surətdə xəbərdar etməklə bu Müqavilənin icrasını dayandırmaq hüququna malikdir.

7.3. Fors-major halların təsirinə məruz qalan Tərəf digər Tərəfi belə halların baş verdiyi gündən 5 (beş) təqvim günündən gec olmayaraq yazılı surətdə xəbərdar etməlidir.

7.4. Fors-major halların baş verməsi barədə xəbərdar etməyən və ya vaxtlı-vaxtında xəbərdar etməyən Tərəf bu Müqavilə üzrə öhdəliklərini icra edə bilmədikdə fors-major hallara istinad etmək hüququnu itirir.

7.5. Fors-major halların baş verməsinə istinad etmək hüququnu itirmiş Tərəf qüvvədə olan qanunvericiliyə uyğun olaraq məsuliyyət daşıyır.

7.6. Fors-major halların mövcudluğu və təsir müddəti səlahiyyətli dövlət orqanları və ya digər səlahiyyətli təşkilatlar tərəfindən verilən sənədlərlə təsdiq olunmalıdır.

7.7. Qarşısıalınmaz qüvvənin təsiri bitdikdə öz öhdəliklərini icra edə bilməyən Tərəf dərhal öhdiləklərinin icrasına başlamalı və digər Tərəfə qarşısıalınmaz qüvvənin təsirinin bitməsi barədə yazılı bildiriş göndərməlidir.

7.8. Fors-major halların baş verməsi Tərəfləri bu hallar baş verməmişdən əvvəl bu Müqavilə üzrə yerinə yetirməli olduqları öhdəliklərin icrasından azad etmir.

## 8. MÜQAVİLƏNİN MÜDDƏTİ VƏ ONUN LƏĞV EDİLMƏSİ

8.1. Bu Müqavilə Tərəflər tərəfindən imzalandığı və möhürləndiyi tarixdən qüvvəyə minir və 4 (dörd) il qüvvədə qalır.

8.2. Bu Müqaviləyə aşağıdakı hallarda xitam verilir:

8.2.1. Bu Müqavilə Tərəflərin qarşılıqlı razılığı ilə ləğv edildikdə;

8.2.2. Tərəflərdən hər hansı biri Müqavilə üzrə öhdəliyini kobud şəkildə pozduqda;

8.2.3. Tərəflərdən hər hansı biri Müqavilə üzrə öhdəliyini edilən xəbərdarlığa baxmayaraq 3 (üç) ay ərzində yerinə yetirmədikdə.

8.3. Bu Müqaviləyə xitam verilməsi Tərəfləri xitam anına qədər bu Müqavilə üzrə yerinə yetirməli olduqları öhdəliklərin icrasından azad etmir.

## 9. DİGƏR ŞƏRTLƏR

9.1. Bu Müqavilə, ona əlavə edilmiş qoşmalarla birlikdə Müqavilənin predmeti ilə bağlı Tərəflər arasında tam razılaşmanı ehtiva edir və bu Müqavilənin predmeti ilə bağlı Tərəflər arasında bütün əvvəlki razılaşmaları və öhdəlikləri əvəz edir. Tərəflər arasında Müqavilədən əvvəlki və ya Müqavilə danışıqları zamanı edilmiş hərəkətlər və müzakirələr hazırkı Müqavilənin hər hansı bəndinin şərhi üçün tətbiq edilməyəcəkdir.

9.2. Bu Müqavilənin heç bir müddəası Azərbaycan Respublikası qanunvericiliyinin imperativ normalarına əməl olunmamasına əsas verə bilməz.

9.3. Tərəflərin heç biri digər Tərəfin əvvəlcədən yazılı razılığı olmadan bu Müqavilə üzrə öz hüquq və/və ya vəzifələrini üçüncü şəxslərə ötürə bilməz.

9.4. Hazırkı Müqaviləyə tərəflərin razılığı ilə yazılı formada hər hansı dəyişikliklər və ya əlavələr edilə bilər.

9.5. Müqavilənin bir və ya bir neçə müddəasının etibarsızlığı onun digər müddəalarının etibarsızlığına o halda səbəb olmur ki, Müqavilə onun etibarsız müddəaları daxil edilmədən də bağlana bilərdi və bu etibarsızlıq Müqavilənin Tərəflərinin vəziyyətini əhəmiyyətli dərəcədə dəyişmir.

9.6. Bu Müqavilə Tərəflərin hər birində 1 (bir) nüsxə qalmaqla 2 (iki) nüsxədə imzalanır və hər biri eyni hüquqi qüvvəyə malikdir.

9.7. Bu Müqavilədə nəzərdə tutulmayan məsələlər Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyi ilə tənzimlənir.

## 10. TƏRƏFLƏRİN REKVİZİTLƏRİ VƏ İMZALARI

| **SİFARİŞÇİ** | **PODRATÇI** |
|---|---|
| "Atlantida Hotel" Şirkəti tərəfindən<br>Atlantida Krallığı,<br>Dream şəhəri, Sülh küçəsi 15 | "Peşəkar Tikinti" MMC<br>Azərbaycan Respublikası, Bakı şəhəri,<br>Azərbaycan prospekti 1 |
| ________<br>imza/ möhür | ________<br>imza/ möhür |

*Qoşma İ-003*

**Elektron Poçt**

Kimdən: Heriot Hotelier
Kimə: Cəsarət Əliyev
Mövzu: Alğı-satqı və zaminlik müqavilələrinin layihələri
Tarix: 05 avqust 2019

Hörmətli cənab Cəsarət,

Dünən keçirdiyimiz görüş zamanı apardığımız müzakirələrə uyğun olaraq Alğı-satqı müqaviləsinin və Zaminlik müqaviləsinin layihələrini göndərirəm.

Hər iki layihə yalnız görüş zamanı müzakirə etdiyimiz məsələləri əhatə edir. Yeganə fərq ondan ibarətdir ki, Alğı-satqı müqaviləsinin layihəsində mübahisələrin həlli bəndində arbitraj barədə razılaşmanı əlavə etmişik. Biz, ümumilikdə, 10 000 000 (on milyon) ABŞ dollarından daha bahalı bir layihə həyata keçiririk, amma indiyə qədər mübahisələrin necə həll ediləcəyini müzakirə etməmişik. Buna görə də ICC Arbitraj Qaydalarına uyğun olaraq arbitraj bəndini layihəyə əlavə etdik.

Bizdə yaranmış narahatlığı anlayışla qarşıladığınız üçün təşəkkür edirik.

Ümid edirəm, bu layihəni uğurla tamamlayarıq.

Hörmətlə,
Heriot

*Qoşma İ-004*

**ALĞI-SATQI MÜQAVİLƏSİ**

Bu Müqaviləni bir tərəfdən Atlantida Krallığının qanunvericiliyinə uyğun olaraq qeydiyyatdan keçmiş və öz nizamnaməsi əsasında fəaliyyət göstərən, Direktoru Heriot Hotelier şəxsində "Atlantida Hotel" Şirkəti (bundan sonra "Satıcı" adlandırılacaq), digər tərəfdən isə Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq qeydiyyatdan keçmiş və öz nizamnaməsi əsasında fəaliyyət göstərən, Direktoru Cəsarət Əliyev şəxsində "Peşəkar Tikinti" Məhdud Məsuliyyətli Cəmiyyəti (bundan sonra "Alıcı" adlandırılacaq) 10 avqust 2019-cu il tarixində bağlamışdır. Satıcı və Alıcı birlikdə **"Tərəflər",** ayrı-ayrılıqda isə "**Tərəf"** adlandırılacaqlar.

**1. MÜQAVİLƏNİN PREDMETİ**

1.1. Satıcı və Alıcı onlar arasında imzalanmış 10.07.2019-cu il tarixli Podrat müqaviləsi ilə bağlı tikinti işlərində istifadə edilməsi üçün idxal edilməli olan bütün malları, o cümlədən 5 000 000 (beş milyon) ABŞ dolları dəyərində ABŞ və ya Avropa istehsalı olan xüsusi ölçmə cihazları, havalandırma sistemi, elektrik avadanlıqları və digər malların (bundan sonra "Mallar") Satıcı tərəfindən təhvil verilməsi, Alıcı tərəfindən isə təhvil alınaraq haqqının ödənilməsi barədə razılığa gəlirlər.

1.2. Malların dəqiq çeşidi və növləri Tərəflər arasında Alıcı tərəfindən sifarişin verilməsi və Satıcı tərəfindən onun təsdiq edilməsi ilə razılaşdırılacaq.

**2. MALLARIN TƏSVİRİ VƏ TƏHVİL-TƏSLİMİ**

2.1. Mallar adətən istifadə edildiyi məqsədlərə uyğun keyfiyyətdə və qaydada Alıcıya təhvil verməlidir.

2.2. Yararlılıq müddəti keçdikdən sonra Satıcı həmin Malların keyfiyyəti və ya vurduqları zərərə görə məsuliyyət daşımır. Əgər Malların üzərində konkret yararlılıq müddəti göstərilməmişdirsə, Mallar ağlabatan müddət üçün yararlı olmalıdır.

2.3. Əgər Alıcı Malları aldıqdan sonra 1 (bir) gün ərzində yazılı bildiriş verməzsə, Malları olduqları kimi qəbul etdiyi hesab edilir. Alıcı dərhal aşkarlana bilməyən qüsurlar barədə hazırkı Müqavilənin 4.3-cü bəndinə uyğun olaraq bildiriş verməlidir.

**3. ÖDƏNİŞ ŞƏRTLƏRİ**

3.1. Mallar Alıcıya təhvil verildikdən sonra 7 (yeddi) iş günü ərzində Alıcı Malların dəyərini Satıcıya ödəyir.

## 4. MÜQAVİLƏNİN İCRASI

4.1. Satıcı Müqaviləni yüksək peşəkar standartlara uyğun icra etməlidir. Satıcı öz hüquqi öhdəliklərinin, xüsusilə əmək, vergi və sosial qanunvericilikdən irəli gələn öhdəliklərin icrasına görə tam məsuliyyət daşıyır.

4.2. Satıcı ona həvalə olunmuş tapşırıqları yerinə yetirən işçi heyətinə görə tam məsuliyyət daşıyır.

4.3. Müqavilə üzrə digər Tərəf hər hansı bir öhdəliyini pozarsa, Tərəf belə pozuntunu bildiyi və ya bilməli olduğu andan 28 (iyirmi səkkiz) gün ərzində digər Tərəfə bildiriş verməlidir. Əgər Tərəf bu müddət ərzində bildiriş vermirsə, həmin pozuntu ilə bağlı bütün hüquqlarını itirir və belə pozuntu ilə bağlı hər hansı zərər, xərc və digər ödəniş tələb edə bilməz, digər tərəf isə bununla bağlı məsuliyyətdən azad olunur.

## 5. MƏXFİLİK

5.1. Hər bir Tərəf Müqavilənin icrası ilə bağlı hər hansı bir məlumatı və ya sənədləri ciddi məxfilik şəraitində saxlamağı və üçüncü şəxslərin istifadəsinə verməməyi və ya üçüncü tərəfə açıqlamamağı öhdəliyinə götürür. Bu öhdəlik Müqavilə üzrə tapşırıqlar yerinə yetirildikdən sonra da Müqavilə qüvvədən düşdükdən və ya ona xitam verildikdən sonra 5 (beş) il müddətində qüvvədə qalmaqda davam edəcək.

## 6. FORS-MAJOR

6.1. Fors-major qismində Müqavilə Tərəflərinin əvvəlcədən gözləmədiyi, Müqavilə üzrə öhdəliklərin icrasına mane olan, hər hansı bir Tərəfin və ya Tərəflərin subpodratçılarının yanlışlığı və ya ehtiyatsızlığı səbəbindən meydana gəlməyən, qarşısı məntiqi üsullarla alına bilinməyən müstəsna vəziyyət, nəzarətlərindən kənar qalan hadisələr nəzərdə tutulur. Avadanlıqda və ya materialda qüsurlar və ya gecikmələr, əmək mübahisələri, tətillər və ya maliyyə problemləri onların birbaşa fors-major halından irəli gəlməsi halları istisna olmaqla, fors-major hesab olunmur.

6.2. Tərəflərinin hər hansı biri fors-major ilə üzləşdikdə digər tərəfə dərhal rəsmi şəkildə (qəbulunu təsdiqləyən formada) fors-majorun halının nədən ibarət olması, ehtimal olunan davam etmə dövrü və proqnozlaşdırılan təsiri haqqında təfsilatlı məlumat təqdim edir.

6.3. Müqavilənin Tərəfləri zərəri minimal səviyyəyə salmaq üçün zəruri tədbirləri görməlidirlər.

## 7. TƏTBİQ EDİLƏN HÜQUQ VƏ MÜBAHİSƏLƏRİN HƏLLİ

7.1. Müqavilə Azərbaycan Respublikasının qanunvericiliyi ilə tənzimlənir.

7.2. Tərəflər arasında bu və onun icrası ilə bağlı digər bütün müqavilə və qeyri-müqavilə münasibətlərindən yaranan, həmçinin Müqavilənin bağlanması, etibarlılığı, şərhindən və ya icrasından irəli gələn bütün mübahisələr Beynəlxalq Arbitraj Palatasının Arbitraj Qaydalarına uyğun olaraq Bakı şəhərində Azərbaycan dilində keçirilən arbitrajla 3 (üç) arbitrdən ibarət arbitraj məhkəməsində həll olunur.

## 8. TƏRƏFLƏRİN MƏSULİYYƏTİ

8.1. Bu Müqavilədə nəzərdə tutulan öhdəliklərin yerinə yetirilməməsi və ya lazım olan şəkildə yerinə yetirilməməsi hallarında təqsirli tərəf Azərbaycan Respublikasının qüvvədə olan mülki qanunvericiliyinə müvafiq olaraq, zərərçəkmiş tərəfə öhdəliklərin yerinə yetirilməməsi nəticəsində vurulmuş maddi və ya mənəvi zərəri ödəməlidir.

## 9. MÜQAVİLƏYƏ ƏLAVƏ VƏ DƏYİŞİKLİKLƏRİN EDİLMƏSİ

9.1. Bu Müqaviləyə bütün əlavə və dəyişiliklər yalnız Tərəflərin qarşılıqlı razılığı ilə edilə bilər.

9.2. Bu Müqaviləyə edilən əlavə və dəyişiliklər onun ayrılmaz hissəsi sayılan yazılı Əlavə razılaşmalarla rəsmiləşdirilir.

## 10. MÜQAVİLƏNİN MÜDDƏTİ VƏ MÜQAVİLƏYƏ XİTAM VERİLMƏSİ

10.1. Alıcı hazırkı Müqaviləni əhəmiyyətli şəkildə pozarsa, Satıcı heç bir bildiriş vermədən dərhal qüvvəyə minməklə Müqaviləyə xitam verib Malları geri tələb edə bilər.

10.2. Bu Müqavilənin ləğv edilməsi Tərəfləri ləğvetmə anınadək bu Müqavilə üzrə yerinə yetirməli olduqları öhdəliklərin icrasından azad etmir.

10.3. Müqavilənin bir və ya bir neçə müddəasının etibarsızlığı onun digər müddəalarının etibarsızlığına səbəb olmur.

10.4. Hazırkı Müqavilə təfsir edilərkən Podrat Müqaviləsinin şərtləri də nəzərə alınmalıdır.

10.5. Hazırkı Müqavilə hər iki Tərəf tərəfindən imzalandığı tarixdən qüvvəyə minir və Podrat Müqaviləsinin qüvvədə olduğu müddətin sonuna qədər qüvvədə qalır. Müqavilə Tərəflərin hər birində 1 (bir) nüsxə qalmaqla, 2 (iki) nüsxədə imzalanır.

## 11. TƏRƏFLƏRİN REKVİZİTLƏRİ VƏ İMZALARI

| **SATICI**<br>“Atlantida Hotel” Şirkəti tərəfindən<br>Atlantida Krallığı,<br>Dream şəhəri, Sülh küçəsi 15 | **ALICI**<br>“Peşəkar Tikinti” MMC<br>Azərbaycan Respublikası, Bakı şəhəri,<br>Azərbaycan prospekti 1 |
| --- | --- |
| ________<br>imza/ möhür | ________<br>imza/ möhür |

*Qoşma İ-005*

**ZAMİNLİK MÜQAVİLƏSİ**

Bu Müqaviləni bir tərəfdən Atlantida Krallığının qanunvericiliyinə uyğun olaraq qeydiyyatdan keçmiş və öz nizamnaməsi əsasında fəaliyyət göstərən, Direktoru Heriot Hotelier şəxsində "Atlantida Hotel" Şirkəti (bundan sonra "Kreditor" adlandırılacaq), digər tərəfdən Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq qeydiyyatdan keçmiş və öz nizamnaməsi əsasında fəaliyyət göstərən, Direktoru Cəsarət Əliyev şəxsində "Peşəkar Tikinti" Məhdud Məsuliyyətli Cəmiyyəti (bundan sonra "Borcalan" adlandırılacaq), digər tərəfdən Əliyev Əhməd Vəli oğlu (Şəxsiyyət vəsiqəsi: AZE0123456789 nömrəli, 01/01/1900-cu il tarixində Nəsimi RPİ tərəfindən verilmişdir) (bundan sonra "Zamin" adlanacaq) 10 avqust 2019-cu il tarixində bağlamışdır.

**1. MÜQAVİLƏNİN PREDMETİ**

1.1. Bu Müqavilənin predmeti Kreditor və Borcalan arasında 10 iyul 2019-cu il tarixli Podrat müqaviləsi və 10 avqust 2019-cu il tarixli isə Malların alğı-satqısı müqaviləsinə (bundan sonra Podrat və Malların alğı-satqısı Müqavilələri "Əsas müqavilələr" adlanacaq və hazırkı Müqaviləyə əlavə edilir) əsasən Borcalanın Kreditor qarşısında öz öhdəliklərinin tamamilə və ya hissə-hissə icra etməsi üçün məsuliyyəti Zaminin öz üzərinə götürməsidir.

**2. ZAMİNLİKLƏ TƏMİN EDİLMİŞ ÖHDƏLİKLƏR**

2.1. Zamin Kreditor qarşısında Borcalanın Əsas Müqavilələr üzrə bütün öhdəliklərinə, o cümlədən aşağıdakı öhdəliklərə görə məsuliyyət daşıyır:

2.1.1. Podrat müqaviləsinə əsasən 13 500 000 (on üç milyon beş yüz min) ABŞ dolları dəyərində işlərin görülməsi;

2.1.2. Alğı-satqı müqaviləsinə əsasən 5 000 000 (beş milyon) ABŞ dolları dəyərində malların satın alınması;

2.1.3. Bu Əsas Müqavilələrlə bağlı dəymiş zərərin və hesablanmış faizlərin ödənilməsi.

2.2. Zamin Əsas Müqavilələrlə tam tanış olmuşdur və həmin Əsas Müqavilələr ilə bağlı Borcalanın bütün öhdəliklərinə görə məsuliyyət daşıdığını qəbul edir.

**3. TƏRƏFLƏRİN HÜQUQ VƏ VƏZİFƏLƏRİ**

3.1. Kreditorun aşağıdakı hüquqları vardır:

3.1.1. Borcalan Əsas Müqavilələr üzrə öhdəliyini icra etmədikdə dəymiş zərərin əvəzini Borcalan və Zaminlərdən tələb etmək.

3.2. Kreditorun aşağıdakı vəzifələri vardır:

3.2.1. Zamin öhdəliyi icra etdikdən sonra Borcalana qarşı tələbi təsdiqləyən sənədləri Zaminə təqdim etmək və həmin tələbi təmin edən hüquqları vermək.

3.3. Zaminin aşağıdakı hüquqları vardır:

3.3.1. Öhdəliyi icra etdikdə Kreditorun həmin öhdəlik üzrə hüquqlarının Kreditorun tələblərini ödədiyi həcmdə əldə etmək;

3.3.2. Kreditora ödənilmiş məbləğdən faizlər ödəməyi və Borcalanın əvəzinə məsuliyyətlə bağlı çəkdiyi digər zərərin əvəzini ödəməyi Borcalandan tələb etmək;

3.3.3. Öhdəliyi icra etdikdən sonra Kreditordan Borcalana qarşı tələbini təsdiqləyən sənədləri ona təqdim etməyi və həmin tələbi təmin edən hüquqları ona verməyi tələb etmək;

3.3.4. Kreditorun tələbinə qarşı Borcalanın irəli sürə biləcəyi etirazları irəli sürmək.

3.4. Zaminin aşağıdakı vəzifələri vardır:

3.4.1. Kreditorun tələbini ödəyənədək bu barədə Borcalanı xəbərdar etmək;

3.4.2. Bu Müqavilə üzrə öhdəliklərini vaxtında və lazımi qaydada icra etmək;

3.4.3. Ona qarşı iddia irəli sürüldükdə Borcalanı işdə iştiraka cəlb etmək.

## 4. TƏRƏFLƏRİN MƏSULİYYƏTİ

4.1. Zaminliklə təmin edilmiş öhdəlik Əsas Müqavilələrdə göstərilmiş qaydada icra edilmədikdə və ya lazımınca icra edilmədikdə Zamin və Borcalan Kreditor qarşısında birgə məsuliyyət daşıyırlar.

4.2. Faizlərin, borc tutulması üzrə məhkəmə xərclərinin və Borcalanın öhdəliyi icra etməməsi və ya lazımınca icra etməməsi nəticəsində Kreditora dəyən digər zərərin əvəzinin ödənilməsi də daxil olmaqla, Zaminlər Kreditor qarşısında Borcalan ilə eyni həcmdə məsuliyyət daşıyır.

## 5. ZAMİNLİYƏ XİTAM VERİLMƏSİ

5.1. Zaminliyə aşağıdakı hallarda xitam verilir:

5.1.1. Zaminliyin təmin etdiyi öhdəliyə xitam verildikdə, habelə Zaminin razılığı olmadan həmin öhdəlik dəyişdirildikdə və bu dəyişdirilmə onun məsuliyyətinin artmasına və onun üçün digər əlverişsiz nəticələrə səbəb olduqda;

5.1.2. Zaminlər yeni borclu üçün cavabdeh olmaq barəsində Kreditora razılıq vermədikdə, zaminliklə təmin edilmiş öhdəlik üzrə borc başqa şəxsə keçirildikdə;

5.1.3. Kreditor Borcalanın və ya Zaminlərin təklif etdiyi lazımi icranı qəbul etməkdən imtina etdikdə;

5.1.4. Zaminliyə onun təmin etdiyi öhdəliyin icrası vaxtının çatdığı gündən 1 (bir) il ərzində Kreditor Zaminlərə qarşı iddia irəli sürmədiyi halda.

## 6. DİGƏR ŞƏRTLƏR

6.1. Borcalan zaminliklə təmin edilən öhdəliyi tamamilə və ya hissə-hissə icra edərək bu barədə zamini dərhal məlumatlandırmalıdır.

6.2. Qanunvericiliklə müəyyən olunmuş hallar istisna olmaqla, Tərəflər bütün məlumatların məxfi saxlanmasına təminat verirlər.

6.3. Bu Müqavilə Tərəflərin imzaladığı gündən qüvvəyə minir və tərəflər bu Müqavilə üzrə öhdəliklərini tam yerinə yetirənədək qüvvədə qalır.

6.4. Bu Müqavilənin icrası ilə əlaqədar Tərəflər arasında yaranmış mübahisələr qarşılıqlı razılıqla həll edilir.

6.5. Bu Müqavilə ilə tənzimlənməyən münasibətlər Azərbaycan Respublikası Mülki Məcəlləsi və digər normativ-hüquqi aktları ilə tənzimlənir.

6.6. Müqaviləyə ediləcək hər hansı dəyişikliklər və əlavələr yazılı şəkildə olmalı, Tərəflərin imzaları və möhür ilə təsdiqlənməlidir.

6.7. Bu Müqavilə Azərbaycan dilində hər biri eyni hüquqi qüvvəyə malik olan 3 (üç) nüsxədə tərtib edilərək imzalanır və tərəflərin hər birində 1 (bir) nüsxə saxlanılır.

## 7. TƏRƏFLƏRİN REKVİZİTLƏRİ VƏ İMZALARI

| **“Kreditor”** | **“Borcalan”** | **“Zamin”** |
|---|---|---|
| **“Atlantida Hotel” Şirkəti**<br>Atlantida Krallığı, Dream şəhəri, Sülh küçəsi 15<br><br>Direktor Heriot Hotelier | **“Peşəkar Tikinti” MMC**<br>Azərbaycan Respublikası, Bakı şəhəri, Azərbaycan prospekti 1<br><br>Direktor Cəsarət Əliyev | **Əliyev Əhməd Vəli oğlu**<br><br>(Şəxsiyyət vəsiqəsi: AZE0123456789 nömrəli, 01/01/1900-cü il tarixində Nəsimi RPİ tərəfindən verilmişdir) |
| **İmza:** ________________<br><br>**M.Y.** | **İmza:** ________________<br><br>**M.Y.** | **İmza:** ________________ |

*Qoşma İ-006*

"Atlantida Hotel" Şirkəti tərəfindən (Atlantida Krallığı, Dream şəhəri, Sülh küçəsi 15)

"Peşəkar Tikinti" MMC-yə qarşı (Azərbaycan Respublikası, Bakı şəhəri, Azərbaycan prospekti 1)

10 oktyabr 2019-cu il

**BİLDİRİŞ**

"Atlantida Hotel" Şirkəti ilə "Peşəkar Tikinti" MMC arasında 10 iyul 2019-cu il tarixdə bağlanmış Podrat müqaviləsi üzrə bildiririk ki, dünən tikinti sahəsinə baxış keçirmiş və Müqavilənin imzalanmasından 3 (üç) ay keçməsinə baxmayaraq, heç bir işin başlamadığını müşayiət etmişik. Plana əsasən hazırkı tarixədək sahə tikinti üçün hazırlanmalı və otelin bünövrəsi qazılmalı idi.

Qeyd edilən gecikməyə görə "Atlantida Hotel" Şirkətinə zərər vurulur və biz Müqaviləyə və qanunvericiliyə uyğun olaraq müvafiq tədbirləri görəcəyik.

**Direktor** **Heriot Hotelier**

*Qoşma İ-007*

**Elektron Poçt**

Kimdən: Heriot Hotelier
Kimə: Cəsarət Əliyev
Mövzu: Zərərin ödənilməsi
Tarix: 15 may 2022

Salam,

Tərəflər arasında bağlanmış Podrat müqaviləsi üzrə hazırkı tarixə qədər işlər tamamlanmalı idi, lakin faktiki olaraq işlərin heç 10%-i tamamlanmayıb. Heç bir izahı olmayan gecikməyə görə 3 (üç) il heç bir ciddi iş aparılmamış, yalnız otelin bünövrəsi tökülmüşdür. Qeyd edilən gecikmə nəticəsində bizim şirkətə 1 000 000 (bir milyon) ABŞ dollarından çox zərər dəymişdir. Görülmüş işlərdə artıq heç bir marağımız qalmamışdır.

Əlavə olaraq, Sizin şirkət Alğı-satqı müqaviləsi üzrə cəmi 100 000 (yüz min) ABŞ dolları dəyərində sifariş vermişdir.

Xahiş edirik, ödədiyimiz avans ödənişi dərhal tam həcmdə qaytarasınız.

Hörmətlə,
Heriot Hotelier

*Qoşma İ-008*

**Elektron Poçt**

Kimdən: Cəsarət Əliyev
Kimə: Heriot Hotelier
Mövzu: Zərərin ödənilməsi
Tarix: 25 may 2022

Salam,

Bildirmək istərdim ki, Sizin məktub bizdə təəssüf hissi doğurdu.

Gecikmə ilə bağlı yaranmış zərəri bizim həyata keçirdiyimiz işlərin Sizin tərəfdən təhvil-təslimi zamanı müzakirə edib, müəyyən razılığa gələ bilərik.

Hörmətlə,
Cəsarət Əliyev

**Cəsarət Əliyev**

"Peşəkar Tikinti" MMC
Ünvan: Azərbaycan Respublikası, Bakı şəhəri
Azərbaycan prospekti 1
Tel: +(0994) 1 2 2223; Faks: (994) 1 2 2224; E-poçt: direktor@tikinti.az

*12.11.2023-cü il tarixində ICC Case Connect vasitəsilə*

Beynəlxalq Ticarət Palatası, Beynəlxalq Arbitraj Məhkəməsi
Baş katib cənab Aleksandr G. Fessas
Ünvan: 33 – 43 Prezident Vilson prospekti
75116 Paris
Fransa

Hörmətli cənab Fessas,

"Peşəkar Tikinti" MMC adından əlavə edilmiş Arbitraj Bildirişinə cavabı təqdim edirəm.

Tələb olunan sənədlər əlavə olunur.

Hörmətlə,
Cəsarət Əliyev

**Qoşma:**

1. *Arbitraj bildirişinə cavab və qoşmaları.*

"Peşəkar Tikinti" MMC tərəfindən (Azərbaycan Respublikası, Bakı şəhəri, Azərbaycan prospekti 1)

"Peşəkar Tikinti" MMC-nin yeganə təsisçisi, zamin Əliyev Əhməd Vəli tərəfindən (Azərbaycan Respublikası, Bakı şəhəri, Azərbaycan prospekti 1)

"Atlantida Hotel" Şirkətinə qarşı (Atlantida Krallığı, Dream şəhəri, Sülh küçəsi 15)

12 noyabr 2023-cü il

**Arbitraj bildirişinə cavab**

Cavabdeh bildirir ki, arbitraj məhkəməsinin Podrat müqaviləsi və Zaminlik müqaviləsi üzrə mübahisəyə baxmağa səlahiyyəti yoxdur. Belə ki, İddiaçı ilə Cavabdeh arasında arbitraja yalnız Alğı-satqı müqaviləsində istinad edilir. Nə Podrat, nə də Zaminlik müqavilələrində arbitraj barədə bənd mövcuddur.

Podrat müqaviləsi və Zaminlik müqaviləsinə münasibətdə belə arbitraj sazişi mövcud və etibarlı olduğu halda belə, Podrat müqaviləsinin tələblərinə uyğun olmadığına görə İddiaçının sözügedən Müqavilələr üzrə tələbləri təmin edilməməlidir.

Cavabdehin Alğı-satqı müqaviləsi üzrə hər hansı malı almaq öhdəliyi olmadığına görə də qeyd edilən Müqavilə üzrə İddiaçının tələbi təmin edilməməlidir.

**FAKTLAR**

İddiaçı ilə Cavabdeh arasında 10 iyul 2019-cu il tarixdə Podrat müqaviləsi bağlanmışdır. Cavabdeh İddiaçı ilə işləmək istədiyi üçün ona bazar qiymətlərindən təxminən 20 faiz daha ucuz qiymət müəyyən etmişdir (Qoşma İ-001).

Buna baxmayaraq, İddiaçı Cavabdehin peşəkarlığı və tikintinin icrasından narahat olduğunu bildirmiş (Qoşma C-001), bununla bağlı görüşməyi təklif etmişdir. Cavabdehin təyin etdiyi görüş (Qoşma C-002) zamanı dəyəri 5 000 000 (beş milyon) ABŞ dollarına qədər olan malların İddiaçıdan alınması və Cavabdehin təsisçisinin zaminliyi barədə razılığa gəlinmişdir.

Qeyd edilən şərtlər Cavabdeh üçün çətin olsa da, o, razılaşmış və işləri görməyə başlamışdır. Cavabdeh, həmçinin 15 oktyabr 2019-cu il tarixdə Alğı-satqı müqaviləsi üzrə 100 000 (yüz min) ABŞ dolları dəyərində mal sifariş etmiş və ödənişi həyata keçirmiş, ödənişdən təxminən 2 (iki) həftə ərzində malları təhvil almışdır. Bundan sonra təxminən 3 (üç) il ərzində İddiaçı Cavabdehə hər hansı tələb və ya narazılıq bildirən heç bir yazılı bildiriş, iddia və ya elektron poçt məktubu göndərməmiş, yalnız 15 may 2022-ci tarixində dəymiş zərərin ödənilməsi barədə elektron poçt məktubu göndərmişdir (Qoşma İ-007). Bu müddət ərzində Cavabdeh Podrat müqaviləsində nəzərdə tutulan tikintinin 1-ci mərhələsini 10 iyul 2021-ci ildə tamamlayıb, İddiaçıya hesabat təqdim etmişdir.

**HÜQUQİ MƏSƏLƏLƏR VƏ TƏLƏBLƏR**

Cavabdeh İddiaçının tələblərini tamamilə əsassız və uydurma hesab edir. Belə ki:

(i) Podrat müqaviləsində heç bir arbitraj sazişi mövcud deyildir və Alğı-satqı müqaviləsindəki arbitraj bəndinin Podrat müqaviləsinə tətbiq edilməsinin hüquqi əsası yoxdur;

(ii) Zaminlə bağlanmış heç bir razılaşmada arbitraja istinad yoxdur və Zamin hazırkı arbitrajda tərəf ola bilməz, bu səbəblə də hazırkı arbitrajda iştirak etməyəcək;

(iii) Cavabdeh Podrat Müqaviləsində əvvəlki təcrübəsi, əmlakları və ya digər aktivləri barədə təminat verməmişdir və İddiaçının istinad etdiyi elektron poçt Podrat müqaviləsinin tərkib hissəsi deyildir və Müqavilənin şərhi üçün istifadə edilə bilməz;

(iv) Podrat müqaviləsinə uyğun olaraq bildiriş və tələb təqdim etmədiyi üçün İddiaçı Müqavilənin 4-cü maddəsinə uyğun olaraq gecikmə və işlərin keyfiyyətinə görə hər hansı zərərin ödənilməsini tələb etmək hüququnu itirmişdir. İddiaçı təqdim edilmiş işləri olduğu kimi qəbul etmiş hesab edilməlidir;

(v) Alğı-satqı müqaviləsi sadəcə çərçivə müqaviləsidir, orada konkret malların adları və ya çeşidi göstərilmədiyinə görə Cavabdehin hər hansı mal almaq öhdəliyi olmamışdır. Cavabdehin belə öhdəliyi olsaydı belə, belə öhdəlik Podrat Müqaviləsi tam icra edildiyi halda yaranardı;

(vi) Alğı-satqı müqaviləsi üzrə Cavabdehin təhvil aldığı mallar mövcud tikintiyə uyğun olmadığı üçün istifadə edilməmişdir və anbarda saxlanılır. Əgər Cavabdeh hər hansı bir

vəsait ödəyəcəksə, həmin vəsaitdən Cavabdehin Alğı-satqı müqaviləsi üzrə İddiaçıya ödədiyi 100 000 (yüz min) ABŞ dollarında vəsait çıxılmalıdır;

(vii) Öhdəlik ABŞ dolları ilə olduğundan həmin vəsait üzərinə Azərbaycan Respublikası qanunvericiliyinə əsasən Mərkəzi Bankın uçot faiz dərəcəsi ilə faizi hesablana bilməz;

(viii) Arbitraj və hüquqşünas xərcləri əsassız iddia qaldırdığı üçün İddiaçı tərəfindən ödənilsin.

**PROSESSUAL MƏSƏLƏLƏR**

Zamin hazırkı arbitrajda iştirak etməyəcək və heç bir arbitrin namizədliyini irəli sürmür. Cavabdeh Beynəlxalq Ticarət Palatasının (ICC) Arbitraj Qaydalarına uyğun olaraq üç arbitrdən birinin – Qasım Qasımovun namizədliyini irəli sürür, lakin bu, arbitraj məhkəməsinin səlahiyyəti ilə razılaşmaq deyildir.

**"Peşəkar Tikinti" MMC-nin direktoru** **Cəsarət Əliyev**

*Qoşma C-001*

**Elektron Poçt**

Kimdən: Heriot Hotelier
Kimə: Cəsarət Əliyev
Mövzu: Şirkət barədə məlumat
Tarix: 1 avqust 2019

Hörmətli cənab Cəsarət,

Podrat müqaviləsini imzaladıqdan sonra bizə daxil olan məlumatlara və sahədə heç bir işin aparılmamasına əsasən Sizin şirkətin keçmiş təcrübəsinin və səriştəsinin həqiqətən olub-olmaması, həmçinin bu layihəni lazımi səviyyədə icra edib-edə bilməyəcəyi ilə bağlı bizdə ciddi narahatlıq yaranmışdır.

Xahiş edirik, şirkətinizin indiyə qədər həyata keçirdiyi bənzər layihələr, Sizin mövcud avadanlıqlar və aktivlər barədə bizə ən qısa müddət ərzində rəsmi sənədləri təqdim edəsiniz.

Hörmətlə,
Heriot Hotelier

*Qoşma C-002*

**Elektron Poçt**

Kimdən: Cəsarət Əliyev
Kimə: Heriot Hotelier
Mövzu: Şirkət barədə məlumat
Tarix: 4 avqust 2019

Hörmətli Heriot,

Sizin narahatlığınızın nədən ibarət olduğu bizə tam aydın deyil.

Biz Podrat müqaviləsi üzrə Sizə hər hansı əlavə sənəd təqdim etmək öhdəliyi daşımırıq və qeyd edilən sənədləri Sizə təqdim etməyəcəyik. Təklif edirəm, bu gün axşam saatlarında görüşək və Sizin narahatlıqları qarşılıqlı razılıqla həll edək. Zənginizi gözləyirəm.

Hörmətlə,
Cəsarət Əliyev